# İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏ ORQANİK KƏND TƏSƏRRÜFATI NÜMAYİŞ TARLALARININ YARADILMASI

**Nana Tartaraşvili**

*Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Torpaqşünaslıq və Aqrokimya İnstitutunun Ekoloji Təmiz Kənd Təsərrüfatı üzrə Regional Təcrübə və Resurs Mərkəzi, nana.tartarashvili.90@mail.ru*

Torpaq balansı məlumatlarına əsasən işğaldan azad olunan ərazilərdə kənd təsərrüfatının bərpasından sonra 200 min hektardan çox torpaq sahəsinin əkin üçün istifadə ediləcəyi proqnozlaşdırılır ki, bunun da təqribən 9 min ha həyətyanı sahələrdir.

Qarabağ təbii zənginliklərinə görə ölkəmizin ərazisində özünəməxsus yer tutur. Lakin, işğal dövründə meşələrin qırılması və daşınması, eləcə də hərbi məqsədlərlə ağır texnikadan istifadə olunması biomüxtəlifliyə ziyan vurmuş, torpaq eroziyasını gücləndirmişdir.

Orqanik kənd təsərrüfatının inkişafı birdən-birə və öz-özünə baş verə bilməz. Azad olunan ərazilərdə məskunlaşan fermerlər üçün məsləhət-informasiya xidmətlərinin təşkili bu bölgədə kənd təsərrüfatının bərpası və inkişafı baxımından vacib faktorlardandır. Belə ki, işğal olunmuş rayonların əhalisinin kənd yerlərində qeydiyyatda olanlarının əksəriyyəti uzun müddətdir kənd təsərrüfatı fəaliyyətindən uzaq düşüblər, yaxud da işğaldan sonra şəhər və qəsəbələrdə doğulan və ya yetişən yeni nəsil ümumiyyətlə kənd təsərrüfatı fəaliyyətində iştirak təcrübəsinə malik deyillər. Həmçinin müasir dövrdə artıq təsərrüfatların texnologiyası yenilənib, yeni və daha məhsuldar təsərrüfatçılıq üsulları formalaşıb. Buna görə də həmin ərazilərdə məsləhət-informasiya xidmətlərinin təşkil olunması və modul peşə təlimi sisteminin yaradılması çox zəruridir.

Ekoloji Təmiz Kənd Təsərrüfatı üzrə Regional Təcrübə və Resurs Mərkəzi (“Mərkəz”) öz fəaliyyətində əsasən 2 vacib funksiyanı yerinə yetirir:

1. Orqanik təsərrüfatçılıqda torpağın və ətraf mühitin qorunmasına şərait yaradan ən müasir texnologiyalar (torpaq və enerji qoruyucu texnologiyalar) və bitki və heyvan xəstəliklərinə qarşı tətbiq olunan biopreparatların sınaqdan keçirələrək ölkənin çox saylı fermer təsərrüfatlarında tətbiqi və yayılması;

2. Ölkənin müxtəlif rayon və regionlarında kənd əhalisinin müxtəlif təbəqələrinin orqanik istehsalın prinsipləri, qaydaları və standartlarının təbliği istiqamətində maarifləndirmə işinin aparılması, informasiya-məsləhət xidmətlərinin təşkili.

“Mərkəz”in elmi fəaliyyəti əsas etibarilə orqanik kənd təsərrüfatı istehsalında “sağlam torpaq” məfhumu bu işin baza göstəricisi hesab olunur. Bu problemin həlli məqsədilə Azərbaycanın kənd təsərrüfatı praktikasında ilk dəfə olaraq (hələ də geniş tətbiq olunmayan) ən müasir texnologiyalar üzrə elmi təcrübələr aparılır:

- regionda ekoloji təmiz kənd təsərrüfatının iqtisadi inkişaf hədəflərinin proqnozlaşdırılması;
- minimum becərmələr texnologiyası üzrə buğda və arpa bitkisi ilə təcrübələr;
- zolaqlı səpin texnologiyası üzrə təcrübələr;
- qarışıq əkin və qarışıq səpin texnologiyaları üzrə təcrübələr;
- kənd təsərrüfatı bitkilərinin zərərvericiləri və xəstəliklərinə qarşı mübarizədə fitonsidli bitkilərdən hazırlanmış biopreparatların tətbiqi texnologiyası üzrə təcrübələr
- seçilmiş yeni və yerli sortların yerli şəraitə uyğunlaşma xüsusiyyətlərinin öyrənilməsinə dair təcrübələr.

“Mərkəz”-in əsas fəaliyyət istiqamətlərindən biri müasir texnologiyaların və innovasiyaların reallaşdırılması üçün elmi təcrübələrin aparılması və fermerlər üçün nümayiş tarlalarının təşkilinə hədəflənmişdir. Bu məqsədə nail olmaq üçün Qax rayonunun Əlibəyli bələdiyyəsinin ərazisində “Mərkəz” tərəfindən icarəyə götürülmüş torpaq sahəsində üç yeni texnologiya *(“Buğdanın zolaqlı*

*səpin texnologiyası", "Minimum becərmələr texnologiyası", "Qarışıq əkinlər texnologiyası")* üzrə təcrübələr qoyulmuşdur və bu sahələrdə elmi müşahidələr davam etdirilir.

Qoyulmuş təcrübələr praktiki baxımdan xüsusi əhəmiyyət kəsb edir. Belə ki, bütün təcrübə sahələri yerli fermerlərə nümayiş tarlaları kimi təqdim olunmaqla onlara tarla seminarlarında yeni texnologiyaların üstünlükləri təlqin olunur.

Seçilmiş yeni və yerli sortların yerli şəraitə uyğunlaşma xüsusiyyətlərinin öyrənilməsinə dair təcrübələrdə ekoloji təmiz kənd təsərrüfatı şəraitində kənd təsərrüfatı bitkilərinin keyfiyyət xüsusiyyətlərinin yaxşılaşdırılması (qədimi sortların qorunması, konkret ərazinin iqlim-torpaq şəraitinə uyğunlaşan yeni sortların alınması, genetik resursların və biomüxtəlifliyin qorunması və s.) bu sistemin əsasını təşkil edir.

Qoyulan təcrübələrin məqsədi məhsuldarlığı və keyfiyyət göstəriciləri yüksək olan bəzi bitki sortlarının son illərdə iqlim dəyişmələrinə qarşı müqavimət dərəcəsini, eyni zamanda xəstəlik və zərərvericilərə qarşı davamlılıq xüsusiyyətlərini öyrənməkdir. Bu məqsədlə tərəvəz və buğda sortları sınaqdan keçirilməlidir. Təcrübə sahəsi fermerlərə nümayiş tarlası kimi təqdim edilməlidir.